

Rusiya Ali İqtisad Məktəbinin professoru Sergey Medvedev öz "Tvitter"ində Arktikanı Rusiyanın yurisdiksiyasından çıxararaq beynəlxalq birliyə verməyi təklif edib. Bu, prezident Vladimir Putin özündən çıxarıb. Putin professoru "başıxarab" adlandırıb.

Bir neçə il Çukotkada yaşamış Sergey Medvedev isə öz fikrini sadə dillə izah edib: "Rusiya Arktikaya yaxşı heç nə gətirməyib və gətirməyəcək. Arktika dünya təbiət və mədəniyyət irsinin unikal və kövrək obyektidir".

Onun sözlərinə görə, hələ SSRİ vaxtlarından region "neftlə kirlənmiş, radiasiyaya bulaşmış, tırtıllı təkərlərlə cırıq-cırıq edilmiş və milyonlarla boş dəmir çəlləklərlə çirklənmiş eksositemə" çevrilib.